# «Ümidlə bax gələcəyə, sabaha»




«Ümidlə bax gələcəyə, sabaha» istedadlı şair Nəcməddin Mürvətovun öz oxucuları ilə on yeddinci görüşüdür. Təbiətə vurğunluq, el-obaya məhəbbət, yurda sevgi, dünyamızın problemləri, bundan narahatlıq hissləri kitaba cəmlənmiş şeir, qəzəl, deyim və düşüncələrin əsas qayəsini təşkil edir. Bütün yazılardakı məntiqlilik, ardıcıllıq təsvirdə dəqiq, dürüst münasibət onların əsas məziyyətidir. İnsani münasibətlərdəki dözülməzlik yaradan ikiüzlülük, saxtakarlıq müdrik şairi düşündürən, ağrıdan, əsəblərini tarıma çəkən başlıca mövzulardır.

Kredo 2019.- 24 yanvar.- S.16.